**CƏMİL CƏMİLBƏYLİ**

***Bakı Dövlət Universiteti Filologiya fakültəsinin Filologiya (Azərbaycan dili və ədəbiyyatı) ixtisası üzrə III kurs, Fl-099 qrup tələbəsi.***

***Yorub məni***

Sovrulmuşam, toz olmuşam,
Talan olmaq yorub məni.
İtmişəm, yoxa çıxmışam,
Yalan olmaq yorub məni.

Daş altında əsir başım,
Baş olmaqdan küsür başım.
Yazıq başım, yesir başım,
Bəlan olmaq yorub məni.

Ölüm gəlir bolusunca,
Köç aparır dolusunca.
Gedənlərin dalısınca
qalan olmaq yorub məni.

Bələyimi bükən anam,
Yamağımı tikən anam,
Dərdlərimi çəkən anam,
Balan olmaq yorub məni.

***********************

***Dekabr səhərinin ağrısı***

Yenə bir ağrı var, nə bilim axı,
Ürəkdənmi gəlir, başdanmı gəlir?!
Ayağım altdakı tikan yerindən,
Başım üstündəki daşdanmı gəlir?!

Hara yıxım axı mən bu ağrını,
Ürəyim üstünə, üzüm üstünə?!
Allah yazıbdırsa, sözüm yox daha,
Allahın yazdığı gözüm üstünə.

Bəs nə vaxt kəsəcək, bilmirəm vallah,
Bəlkə də yerini bilənə kimi?!
Bəlkə də yerini bilənə qədər,
Bəlkə də ağrıdan ölənə kimi.

Bu nə həngamədir, bu nə oyundur,
Vallah ta bilmirəm haram ağrıyır.
Deyəsən bir yerin ağrısı deyil,

Hara toxunsalar, oram ağrıyır.

******************************

***Bitəcəm, Allah, bitəcəm.***

Sən gözü ver, yaşı özüm,
Tökəcəm, Allah, tökəcəm.
Dərdlərin ən gözəlini,
Çəkəcəm, Allah, çəkəcəm.

Həsrətimdi varım, yoxum,
Bu ömürdən necə çıxım?!
Bel götürüb dərd ağacı,
Əkəcəm, Allah, əkəcəm.

Tökməsin anam yaşını,
Dərd ağartmasın başını.
Öz əlimlə baş daşımı,
Dikəcəm, Allah, dikəcəm.

Nə yaman yazıdır bu, ax,
Ömür ağac, budaq - budaq,
Bu ağacda çürük budaq,
Kökəcən, Allah, kökəcən.

Sovrulub kül tək dağılam,
Təsbeh daşı tək yığılam.
Mən də bir acı nağılam,
Bitəcəm, Allah, bitəcəm.

************************

***Şeirdi də***

Bir az şirin, bir az acı,
Yaşayaq da, ömürdü də.
Bu da bir cür tamaşadı,
Bu da bir cür seyirdi də.

Biz hər şeydən keçdik heçə,
Biz tərəfdə bitməz gecə.
Gözləyirik, gəlmir əcəl,
Bu da bir sirr, sehirdi də.

Yolun başqa, çəmin ayrı,
Acın başqa, qəmin ayrı.
Bağışla bəndəni, Tanrı,
Fikir vermə, şeirdi də.